# AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ

## İXTİSASLAR VƏ İXTİSASLAŞMALAR

## BAKALAVR

## KULTUROLOGİYA FAKÜLTƏSİ

| | **Azərbaycan Respublikası Nazirlər Kabinetinin 12.01.2009-cu il tarixli, 8 nömrəli qərarı ilə təsdiq olunmuş ixtisas siyahıları üzrə ixtisaslar:** | İxtisasın kodu |
|---|---|---|
| 1 | **Menecment** | 050407 |
| | Menecment ixtisasının məqsəd və vəzifələrinə təşkilatın missiyası, niyyəti, məqsədi və strategiyasının müəyyən edilməsi, postindustrial dövrün qeyri-müəyyənliklərinin, işgüzar təşkilatların strategiyasının müəyyən edilməsi, idarəetmə münasibətlərini formalaşdıran və tənzimləyən idarəetmə prinsiplərinin və dəyərlərinin araşdırılması, təşkilatın daxili və xarici mühit amilləri arasında qarşılıqlı dinamikanın və münasibətlərin müəyyənləşdirilməsi, menecmentin təşkilat formaları, menecmentin funksiyaları, prinsipləri və metodları daxildir. | |
| 2 | **Beynəlxalq münasibətlər** | 050213 |
| | Beynəlxalq münasibətlər ixtisasının məqsəd və vəzifələrinə ölkələrin siyasi və iqtisadi coğrafiyası, beynəlxalq münasibətlər nəzəriyyəsi, beynəlxalq münasibətlər tarixi, Azərbaycan xarici siyasəti, beynəlxalq hüququn əsasları və ölkələrin siyasi sistemləri, müasir beynəlxalq münasibətlər sistemində qloballaşma prosesi, Azərbaycan Respublikasının milli təhlükəsizliyinin əsasları, beynəlxalq münasibətlərin formalaşması və təkamülü, beynəlxalq iqtisadi münasibətlər və ölkələrin iqtisadi diplomatik fəaliyyətləri barədə dərin biliklər daxildir. | |
| 3 | **Turizm və otelçilik** | 050810 |
| | Turizm və otelçilik ixtisasının məqsəd və vəzifələrinə informasiya, onun qorunması, işlənib-hazırlanması vərdişləri, müasir texnologiyadan istifadə etməklə yeni turizm məhsulu hazırlamaq vərdişləri, otelçilik fəaliyyətində personalı idarəetmə vərdişləri, peşəsi ilə əlaqəli iş prinsiplərinin öryənilməsi, xidmətin marketinq kompleksinin komponentləri, xidmət marketinqinin planlaşdırlıması, turizm bazarının öyrənilməsi marketinq tədqiqatlarının istiqamətləri, tələb və təklifi, otellərin yaradılma prosesi və təşkilati strukturu, otelin bölmələri və onların funksiyaları, baş menecerin fəaliyyətinin konseptual əsasları daxildir. | |
| 4 | **Muzeyşünaslıq, arxiv işi və abidələrin qorunması** | 050301 |
| | Muzeyşünaslıq,arxiv işi və abidələrin qorunması ixtisasının məqsəd və vəzifələrinə muzey işinin tarixi, nəzəriyyəsi, təşkili və idarəolunması haqqında, ekskursiya sənəti ilə əlaqədar elmi-nəzəri biliklərə, muzey fondu üzrə dövri mətbuat, elmi-nəzəri biliklərə, fondun əsasları haqqında dərin biliklər, dünya muzeylərinin tarixi, muzeylərdə mühafizə olunan eksponatlar, xüsusilə də milli sənət nümunələri haqqında dərin biliklər, abidələrin mühafizə və istismarı üzrə fəaliyyət istiqamətləri və prosesin gedişi xronologiyası, turizmin inkişafı üçün muzeylərin üzərinə düşən müasir vəzifələr haqqında anlayış, müstəqil fikir və tövsiyələrin irəli sürülməsi və bundan irəli gələn proseslər haqqında biliklər daxildir. | |
| 5 | **Kitabşünaslıq** | 050205 |
| | Kitabşünaslıq ixtisasının məqsəd və vəzifələrinə çoxluq, funksiya, qraflar nəzəriyyəsinin elementlərini, riyazi statistik metodları, kitabşünaslığın əsasları, termin və anlayışları, xüsusiyyətləri və məzmunu, kitabın mahiyyəti, “kitab” kateqoriyasının məzmunu, “elektron kitab”ın və “ənənəvi kitab”ın ümumi və fərqli cəhətləri, inkişaf perspektivi, kitabın tipologiyası, kitabşünaslıq biliklər sistemi, kitabşünaslığın obyekti, predmeti, tərkibi, quruluşu, kitabşünaslıq metodunun nəzəriyyəti, kitab haqqında müasir elmin inkişafının prioritet istiqamətləri və s. haqqında söhbətlər aparılması daxildir. | |
| 6 | **Sosial iş** | 050813 |
| | Sosial iş ixtisasının məqsəd və vəzifələrinə sosial işin prinsipləri, metod və metodologiyasından istifadə etmək bacarıq və vərdişləri, müştəri ilə bağlı faktların təhlili zamanı mövqeyini elmi cəhətdən sübut etmək bacarığı, elmi diskussiya aparmaq bacarığı, müştərinin vəziyyətini təhlil edib, görüləcək işin məzmununu | |

| | | |
|---|---|---|
| | müəyyənləşdirmək bacarığı, sosial işin müasir vəziyyəti, tədqiqat istiqamətləri, ümumi-metodoloji aspektləri daxildir. | |
| 7 | **Kitabxanaçılıq və informasiya** | 050215 |
| | Kitabxanaçılıq və informasiya ixtisasının məqsəd və vəzifələrinə İKT- nin kitabxana-informasiya sahəsinə tətbiqi imkanları, psixologiyanın və pedaqogikanın predmetini, metodlarını, oxucuların psixoloji xüsusiyyətlərini, cəmiyyətdə kitabxanaların tarixi missiyasını, kitabxana proseslərinin inkişaf qanunauyğunluqlarını, xassələri, xarakterini, strukturunu, sosial funksiyalarını və capəsərlərindən, elektron kitablardan, elektron vasitələrdən ictimai istifadənin səmərəli təşkilinin tətbiq edilməsi daxildir. | |
| 8 | **Sosiologiya** | 050210 |
| | Sosiologiya ixtisasının məqsəd və vəzifələrinə sosiologiya elminin müasir vəziyyətini və inkişaf meylləri, sosiologiya tarixi, müxtəlif sosioloji nəzəriyyələrin formalaşması xüsusiyyətləri, sosiologiya elminin nəzəri-metodoloji məsələləri, sosial proseslər və əlaqələrin səciyyəvi xüsusiyyətləri, idarəetmədə yaranan müxtəlif sosial problemlərin öyrənilməsi ilə bağlı sosioloji tədqiqatlar aparmaq üçün sosial elmlərin metod və metodologiyası daxildir. | |